*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 6, 2025*
*Səh. 496-501*

https://doi.org/10.62837/2025.6.496

**AYGÜN ƏRZIMAN QIZI QASIMOVA**
AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu
filologiya elmləri üzrə fəlsəfə doktoru
a.qasımova62@gmail.com

# AŞIQ ƏHMƏD RÜSTƏMOVUN AŞIQ ŞEİRLƏRİ

Şirvan aşıqları Azərbaycan aşıq ənənəsinin davamıdır. Bu sənət vahid kökdən, bir mənşədən qaynaqlanır və bir sıra özəlliklər qazanır. Belə özəlliklərin yaranmasında tarixi-mədəni şəraitin də, coğrafiyanın da, folklor mühitinin də rolu vardır. Azərbaycan aşıq sənətinin Şirvan qolu sənətin ümumi xüsusiyyətlərini qoruyub saxlamışdır.

Şirvan aşıq mühitini Aşıq Əhmədsiz təsəvvür etmək olmaz. Aşıq Əhmədin yaradıcılığı Azərbaycan aşıq sənətinin müəyyən bir dövrünün reallığını özündə dolğun şəkildə əks etdirir. O, Azərbaycan ozan-aşıq sənətinin görkəmli nümayəndələrindən biri olmaqla, özündən sonra zəngin, məzmunlu yaradıcılıq irsi qoyub. O, şifahi və yazılı ədəbiyyata, klassik irsimizə və müasirlərimizə bələd olan ustad aşıq idi. Böyük Vətən müharibəsinin veteranı, əməkdar mədəniyyət işçisi, onlarla şagird hazırlamış, 50 il aşıqlıq etmiş, Qarabağ savaşında səngər-səngər gəzib sazı və sözü ilə əsgərlərimizi mənfur düşmən üzərində qələbəyə ruhlandırmışdır.

“Azərbaycan aşıq yaradıcılığı tarixində qoşma janrında şeir yaratmayan şair-aşığa təsadüf etmirik. Eyni zamanda, xalq poeziyası ilə üzvi surətdə bağlanan, doğma ana dilində yazıb-yaradan görkəmli Azərbaycan şairlərinin əksəriyyəti xalq şeiri janrlarında, o cümlədən də qoşma və gəraylı şəklində əsər yazmışlar” .(1, s 161)

Aşıq Əhməd də qoşma, gəraylı, müxəmməs, ustadnamə, qıfılbənd kimi klassik aşıq şeir janrlarından istifadə edib. Onun əsərləri məzmunlu və hikmətli fikirlərlə zəngindir. Onun yaradıcılığında "Kərəmi", "Əfşarı", "Kürdü", "Dilqəmi", "Yanıq Kərəmi" kimi aşıq havalarının da özünəməxsus yer aldığını görürük.

Aşıq Əhmədin yaradıcılığında 3, 4, 5, 6, 7 bəndlik qoşmalar geniş işlənmişdir. "Görmüşəm", "Dəyməz", "Eylər", "Eyləsin", "Getdi", "Gəlmək üçündü", "Ola biləydim", "Dilim", "Faydası yoxdur", "Səni", "Mərdi", "Olsun" və s. qoşmaların poetik sistemi mükəmməlliyi ilə klassik aşıq şeirindən seçilmir.

Folklorşünas S.Qəniyev Şirvan aşıqlarının yaradıcılığında qoşmaların çeşidli forma xüsusiyyətlərindən bəhs edərək yazır: “Şirvan aşıqlarının yaradıcılığında qoşmanın bu şəkillərinin bir çoxuna aid kamil örnəklər vardır”. (2)

Aşıq Əhməd qoşmalarında sözün dəyərini ön plana çəkir. Müdrik kəlamlar, atalar sözü və zərb məsəllərin çeşidli növləri bu janrın qəlibləri çərçivəsinə daxil olur.

Hər kəlmə ürəkdən baş verir göz-göz,
Gah şirin bal olur, gah da yanar köz,
Çalış, yaxşı yoxla, deyəcəyin söz,
Gör başa batmasa,danışma dilim! (3, s 24)

"Hikmətli söz" qoşmasında;
Hər sirrin açarı olan bu hikmət,
Ağıldan güc alır, kamaldan zinət,
Kimdə varsa bu üç təxti səltənət,
Surətdə günəşdir, qiymətdə gövhər. (3, s 45)

Qoşma janrının müxtəlif şəkilləri vardır: qoşayarpaq qoşma, güllü qoşma, təkrar misralı qoşma, qoşma-müstəzad, əvvəl-axır zəncirləmə, ayaqlı qoşma və s. Qoşayarpaq qoşmaya Aşıq Əhmədin poeziyasında da rast gəlinir:

Bir qara qaşlıya, şux baxışlıya,
Tovuz naxışlıya mail olmuşam.
Mirvari dişliyə, xoş gülüşlüyə
Turac yerişliyə mail olmuşam.( 3, s 109)

Qoşma müstəzad (ayaqlı qoşma). Bu formanın da klassik ədəbiyyatdan gəlməsi haqqında mülahizələr mövcuddur Aşıq Əhməd poeziyasında qoşma-müstəzad şəkli işlənmişdir:

Adamsan, zövq oxşa, göz yaşı qurut,
Dərdinə şərik ol, qəm-qüssə dağıt!
Desən: məğrur dağam, gövdəli palıd,
Əhməddə külüng də, balta da var,ha!
Vur vurum daha!(3, s 112)

Gözəlin vəsfinə həsr edilən aşiqanə qoşmalara nəzər yetirək:

Sanki, Züleyxasan bu şövqü şəstlə,
Eşqimi qəlbində Yusif tək bəslə,
Biçarə Əhmədi sən yetir vəslə,
Düşüb gecə-gündüz, soragındadı.(3, s 60)

Aşıq öz vətəninə, xalqına bağlı idi. O, Vətəninin gözəlliyini vəsf edir, sənətə-şeirə layiq olduğunu bildirirdi.

Dil aç, telli sazım, Şirvan elindən,
Gəl gedək, Qazağa bir salam verək!
Vaqiflə bir yerdə Cıdır düzündən
Gözəl Qarabağa bir salam verək! (4, s 7)

Xalq şeirində ən çox işlənən şeir şəkillərindən biri də gəraylıdır. Bəzən buna səkkizlik də deyilir. Qoşma ilə gəraylını fərqləndirən şəkli xüsusiyyət qoşmanın on bir, gəraylının isə səkkiz hecalı olmasıdır. Gəraylı şeir şəklindən istifadə etməyən şair-aşıq demək olar ki, yoxdur.

Professor M.Həkimova görə, "gəraylı həm yazılı, həm də aşıq ədəbiyyatında ən oynaq, ən məhsuldar və ən zəngin lirik şeir şəkillərindəndir" (5)

Aşıq Əhmədin yaradıcılığında gəraylı şeir forması geniş şəkildə işlənmişdir. Aşıq Əhmədin gəraylılarında daha çox 3, 4 və 5 bəndliklər müşahidə olunur və sevgi-məhəbbət, öyüd-nəsihət, dünya və insan haqqında fəlsəfi düşüncələr və s. bu kimi məzmun daşıyır. "Gəldim", "Olmasın", "Yalan", "Keçməsin", "Dilbər", "Görünürsən", "İncidər səni", "Nədi", "Yaşadar", "Dəyməsin", "Gəlmişəm", "Səni", "Zərnişan", "Məni" və b. gəraylıların hər biri poetik baxımdan mükəmməldir və klassik nümunələr səviyyəsindədir.

**Professor Qara Namazovun aşıq Əhməd haqqında dediklərindən:** Aşıq Əhməd Rüstəmovun sənətinə, şeir yaradıcılığına başqaları kimi mənim də böyük marağım, rəğbətim olub. O, mükəmməl saz çalırdı, yaxşı dastanlar söyləyirdi, əsl obrazlar yaradırdı. Şeirlərinin sanbalına və dəyərinə görə istedadlı şair kimi tanınırdı. O, 20 dastanın, çox məzmunlu, dəyərli ustadnamələrin müəllifi olub. Onu da xatırladım ki, ustad aşıq Ələsgərin 2 məşhur bağlamasını aşıq Əhmədə qədər heç kim aça bilməmişdi. Aşıq Əhməd isə ulu ustadın dediyim o bağlamalarını aça bildi.(6)

Aşıq Əhməd sənətə, sənətkara yüksək qiymət verən aşıqlardandır. Özünə ustad bildiyi, yaradıcılığından ilham aldığı Aşıq Ələsgərə gəraylı həsr edir:

Sən bir sənət dahisisən,
Mən sənin övladın, ustad!
Ömür boyu ürəyimdə
Həkk olubdur adın, ustad!

Mən cavanam, sən ulusan,
Qəlbi inciylə dolusan.
Aşıqların haqq yolusan,
Sönməz günəş odun, ustad!(4, s 45)

O, fəxrlə, özünü ustadın övladı adlandırır.

Həm klassik, həm də müasir aşıqlar müxəmməsdən çox istifadə etmişlər. Müxəmməsin birinci bəndin bütün misraları həmqafiyədir. Sonrakı bəndlərdə, dörd misra bir-biriylə, sonuncu misra isə birinci bənddə işlənən baş qafıyə ilə qafiyələnir. Ən çox işlənən müxəmməs formaları aşağıdakılardır: "müxəmməs", "orta müxəmməs", "müxəmməs qoşayarpaq", "müxəmməs təxmis", "cığalı müxəmməs", "duvaqqapma", "müxəmməs ustadnamə", "müxəmməs tarixi-mənzumə". Müxəmməs ictimai mövzulu olmaqla, çox zaman məhəbbət və gözəlliyi tərənnüm edən şeir formasıdır.

Dəli Kürə kəmənd atıb.
Cilovladın, Mingəçevir!
Təbiətin kəc rəftarın
Buxovladın, Mingəçevir!

*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 6, 2025*
*Səh. 496-501*

Muğana, Milə, Şirvana
Su yolladın, Mingəçevir!
Xəritələrdə nəqş olunub
Gözəl adın, Mingəçevir! (4, s 55)

Cığalı müxəmməs ənənəvi aşıq müxəmməsinin (beşliyin) dördüncü misrası ilə beşinci misrası arasına zəncirləmə tərzində beş hecalı doqquz misra yerləşdirməklə düzəldilir.

Bahardır seyrə çıxıb nazlı yarım
bağda gəlir,
Sanki, bir gül açılıb əbrişim
budaqda gəlir,
Gah gülür, gah danışır, hamıdan
qabaqda gəlir,
Tovuz tək cilvələnib gör nə kef,
damaqda gəlir.
Gəl, maralım,
Dərdin alım,
Sor əhvalım,
Gül camalım,
Qurban olum.
Şux dilbərimsən, gülm!
Təzə-tərimsən, gülüm!
Taci-sərimsən, gülüm!
Gözəl pərimsən, gülüm!
Bəxt ülkərimsən, gülüm!
Göstər gül cəmalı sən,
Sevindir mahalı sən.
Salma qeylü-qalı sən,
Geyinibsən alı sən.
Elə bil, sərvi-rəvan şahdı çıxıb taxta gəlir (3, s 105-106)

Qoşayarpaq müxəmməs:

Ay mənim şux maralım, mah camalım,
ağrın alım!
Həyalı pür kəmalım, əhli halım, ağrın alım!

Əlləri tər xınalım, top cığalım,
ağrın alım!
İqbalım, istiqbalım, küllü malım,
ağrın alım!(3, s 110, 111)

Aşıq şeirinin ayrı-ayrı çeşid və biçimlərinin sistemli şəkildə öyrənilməsi, eləcə də yeni nəsillərə, gənc aşıqlara təlqin olunması gərəkli bir iş kimi mühüm önəm daşıyır. (7)

Aşıq Əhməd yaradıcılığı Aşıq sənətinin ən kamil nümunələrini özündə birləşdirir. Bu da oxucuya xüsusi zövq verir, onu sevdirir. Aşıq öz yaradıcılığı ilə Azərbaycan aşıq sənətinin inkişafında böyük rol oynamış, mahnıları bu gün də el məclislərinin yaraşığıdır.

## ƏDƏBİYYAT

1. Vəliyev V. Qaynar söz çeşməsi. B.:Yazıçı, 1981, 161 s
2. Qəniyev S. Şirvan folklor mühiti. B.:Ozan, 1997, 260 s
3. Aşıq Əhməd. İtən sazım. B.: «Şur» nəşriyyatı, 1995, 144
4. Aşıq Əhməd. Sazımın telləri. B.:1965, 30 s.(55)
5. M.Həkimov Azərbaycan aşıq şeir şəkilləri və qaynaqları. B.: Maarif, 1999, 376 s.
6. Abdullayev T.Aşıq Əhməd-100.ədalət 2020.08 oktyabr.
7. M.Qasımlı, M.Allahmanlı.Aşıq şeirinin poetik biçimləri və çeşidləri. "Elm və Təhsil". Bakı-2018

## Xülasə

Aşıq Əhmədin yaradıcılığı Azərbaycan aşıq sənətinin müəyyən bir dövrünün reallığını, Şirvan aşıq mühitini özündə dolğun şəkildə əks etməkdədir. O, şifahi və yazılı ədəbiyyata, keçmişə və bu günə, klassik irsimizə və müasirlərimizə tam bələd olan ustad aşıq və bənzərsiz şair idi. Buna görə də onun yaradıcılığında xalq yaradıcılığına məxsus qoşma, gəraylı, müxəmməs və.s formaları xüsusi yer tutur. Özü də şair bu janrlara əl atanda ona hökmən müasirlik əhval-ruhiyyəsi qatır. Sazı, sözü və maraqlı dastanları ilə uzun illər məclislərə yaraşıq verib. Aşıq Əhməd şeirləri və bəstələri ilə Azərbaycan aşıq sənətinin inkişafında böyük rol oyanmış, mahnıları bu gündə el məclislərinin yaraşığıdır.

**Açar sözlər:** aşıq, Aşıq Əhməd, Şirvan Aşıq mühiti, aşıq sənəti, folklor, qoşma, gəraylı.

## АШУГСКИЕ СТИХИ АШУГА АХМАДА РУСТАМОВА
## РЕЗЮМЕ

Творчество Ашика Ахмеда в полной мере отражает реалии определенного периода азербайджанского ашугского искусства, ширванской ашугской среды. Он был мастером-ашугом и уникальным поэтом, досконально знающим устную и письменную литературу, прошлое и настоящее, наше классическое

наследие и наших современников. Поэтому такие формы народного искусства, как гошма, герайлы, мухаммас и т. д., занимают особое место в его творчестве. Обращаясь к этим жанрам, поэт неизбежно привносит в них современное настроение. На протяжении многих лет он украшает собрания своей музыкой, текстами песен и интересными эпическими произведениями. Своими стихами и композициями Ашик Ахмед сыграл важную роль в развитии азербайджанского ашугского искусства, а его песни и сегодня являются украшением народных собраний.

**Ключевые слова:** ашуг, Ашуг Ахмад, Ширван Окружающая среда Ашуга, искусство ашуга, фольклор, кошма, гарайлы.

**AYGUN QASIMOVA**

## ASHUG POEMS BY ASHUG AHMAD RUSTAMOV
## SUMMARY

Ashiq Ahmed's work fully reflects the reality of a certain period of Azerbaijani ashiq art, the Shirvan ashiq environment. He was a master ashiq and a unique poet who was fully familiar with oral and written literature, the past and the present, our classical heritage and our contemporaries. Therefore, folk art forms such as qoshma, garayli, mukhammas, etc. occupy a special place in his work. When a poet uses these genres, he inevitably adds a modern mood to them. He has graced gatherings for many years with his music, lyrics and interesting epics. Ashiq Ahmed played a major role in the development of Azerbaijani ashiq art with his poems and compositions, and his songs are the adornment of folk gatherings today

**Key words:** ashug, Ashug Ahmad, Shirvan Ashug environment, ashug art, folklore, qoshma, garayli.

**Rəyçi: dos.T.Məmmədova**